

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 noyabr 2023-cü il №88 (2800) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989-2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 noyabr 2023-cü il

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz



*İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Fəxri xiyabana gələrək, Azərbaycan xalqının Ümummilli Liderinin, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

Həmçinin Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasına rəsmi səfərə gələn İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin noyabrın 20-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İraq Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev İraq Prezidenti Əbdüllətif Camal Rəşidi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi İraq Prezidentinə raport verib.

Prezident Əbdüllətif Camal Rəşid Azərbaycan əsgərlərini salamlayıb.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

İraq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səslәndirilib.

Azərbaycan nümayəndə heyəti İraq Prezidentinə, İraq nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İraq Prezidenti Əbdüllətif Camal Rəşidin qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü keçirilib.

Dövlətimizin başçısı İraq Prezidentinin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində Azərbaycana səfərini və keçirdikləri görüşü məmnuniyyətlə xatırlayıb. İraq Prezidentinin ölkəmizə ilk dəfə rəsmi səfərə gəlməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu səfərin və səfər zamanı aparılacaq müzakirələrin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı İqtisadi-ticari, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaxın vaxtlarda İraqda iclasının keçiriləcəyini və onun iqtisadi-ticari əlaqələrin daha da genişlənməsində mühüm rol oynayacağını deyib.

İraq Prezidenti Azərbaycan ilə əlaqələrin daha da inkişafında əzmli olduqlarını vurğulayıb, səfər çərçivəsində imzalanacaq sənədlərin əlaqələrimizin genişlənməsinə böyük töhfə verəcəyini bildirib.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birinin mövqelərini dəstəklədiyi məmnunluqla vurğulanıb, Azərbaycanın və İraqın işğaldan əziyyət çəkdiyi, amma bu vəziyyətin keçmişdə qaldığı qeyd edilib.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadiyyat, energetika, mədəniyyət, elm, təhsil və turizm sahələrində əməkdaşlıq məsələlərinin inkişafı üçün əlverişli imkanların olduğu bildirilib.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Cənab Prezident, hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz artıq cənab Prezidentlə əməkdaşlığımız, regionlarımızda siyasi proseslərlə bağlı müxtəlif məsələlərə dair çox yaxşı müzakirə apardıq. İndi isə biz nümayəndə heyətlərinin iştirakı ilə vacib məsələlərin müzakirəsini davam etdirəcəyik. Gələn ay bizim nümayəndə heyəti birgə iqtisadi komissiyada iştirak etmək üçün İraqa səfər edəcək. Biz artıq ticarət, iqtisadi və enerji gündəliyimizlə bağlı məsələləri qismən müzakirə etdik.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz



(Əvvəli 1-ci səhifədə)

Beləliklə, ilk növbədə, biz cənab Prezidenti Azərbaycana rəsmi səfərdə qəbul etməkdən çox şadıq. Bu, ikitərəfli əlaqələrimizin tarixində çox əlamətdar hadisədir. Bu, Azərbaycan müstəqil ölkə olandan bəri İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Beləliklə, indi biz iqtisadi-ticari əməkdaşlıqla bağlı mühüm məsələlərin müzakirəsini davam etdirəcəyik. Əminəm ki, bu, həmçinin gələn ay Bağdadda keçiriləcək görüşün yaxşı nəticələrinə müsbət töhfə olacaq. Cənab Prezident, bir daha xoş gəlmisiniz.

Prezident **Əbdüllətif Camal Rəşid** çıxış edərək deyib:

- Təşəkkür edirəm, cənab Prezident, Sizi görmək hər zaman xoşdur. Əlaqələrin gücləndirilməsi, ticarət, siyasət, eləcə də beynəlxalq məsələlərə dair Sizdən məsləhət almaq çox yaxşı haldır. Biz iki ölkə arasında əlaqələrimizi daha da gücləndirməkdə çox qətiyyətliyik. Gələn ay sizin nümayəndə heyətini qəbul etməyi gözləyirik və ümidvaram ki, o, çox səmərəli olacaq. Azərbaycana bütün səfərlər səmərəli olur. Bu gün bizim nümayəndə heyətlərimiz iki ölkə arasında bəzi anlaşma memorandumlarının imzalanmasına hazırdır.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və İraq Respublikasının əmək və sosial işlər naziri Əhməd Cassim Sabir Əl-Əsədi "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İraq Respublikasının Əmək və Sosial İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İraq Respublikasının Turizm Xidmətinin rəisi Zafer Mahdi "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İraq Respublikasının Mədəniyyət, Turizm və Tarixi Abidələr Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İraq Respublikasının xarici işlər nazirinin müavini Məhəmməd Hüseyn Bəhr Əl-Ulum "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

* * *

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və İraq Respublikasının Mülki Aviasiya Baş İdarəsinin rəisi İmad Əl-Əsədi "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i imzalayıblar.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyə çox şadam. İraq Prezidenti ölkəmizə bu ilin əvvəlində Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı səfər etmişdi və görüşümüz zamanı mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Çox minnətdaram ki, dəvətim qəbul olundu və Prezident bizim qonağımızdır.

Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq. Yeri gəlmişkən, bu, diplomatik əlaqələr tarixi boyunca İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə də bu, tarixi səfərdir.

Biz təkbətək görüşümüz zamanı və nümayəndə heyətləri ilə görüşdə ikitərəfli gündəliyimizin bir çox məsələlərini müzakirə etdik, faktiki olaraq gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirdik. Biz sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman birbirimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik.

Cənab Prezident qonşu Ermənistana da səfər edəcək. Ona görə də mən fürsətdən istifadə edərək iki ölkə arasındakı hazırkı vəziyyətlə bağlı qonağımı məlumatlandırmaq istəyirəm. Əlbəttə, hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində baş verdiyinə nəzər salmalıyıq.





1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizinin işğalı ilə nəticələndi, etnik təmizləmə siyasəti həyata keçirdi ki, bu da bir milyondan çox azərbaycanlının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ətraf rayonların ərazisindən fiziki qovulması ilə nəticələndi.

Beləliklə, qeyd etdiyim kimi, bu, ərazimizin təqribən 20 faizini təşkil edirdi və uzun illər ərzində onlara məxsus olmayan ərazini geri qaytarmaqdan imtina edirdi. Faktiki olaraq sıfır nəticələrə gətirib çıxarmış müxtəlif beynəlxalq vasitəçilik səylərinə baxmayaraq, Ermənistan bizim torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi. Mandatı işğala son qoymaq üçün həll yolu tapmaqdan ibarət olan ATƏT-in Minsk Qrupu yaradılandan 28 il sonra Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə bizə verilmiş qanuni imkandan istifadə edərək işğaldan azad etdi.

Biz ümid edirdik ki, bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq, lakin bu, baş vermədi. Biz demək olar ki, 3 il çox səbirli olduq, Ermənistanla birbaşa təmaslarımız, beynəlxalq vasitəçilər vasitəsilə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir, biz hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Əfsuslar ki, onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu.

Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq. Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır.

Bunun nəticəsində Dağlıq Qarabağdakı qeyri-qanuni rejim süquta uğradı. Onun qeyri-qanuni olmasına baxmayaraq, onlar özləri "Dağlıq Qarabağ Respublikası" adlandırdıqları bu qeyri-qanuni qurumu buraxdılar. Biz suverenliyimizi bərpa etdik və indi Azərbaycan Bayrağı ərazimizdə hər yerdə dalğalanır.

Beləliklə, bu, vəziyyətin tarixçəsidir. İndi isə biz növbəti mərhələyə gəlirik. Növbəti mərhələdə isə biz - mən bunu cənab Prezidentə bildirdim, - Ermənistandan təkliflimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik. Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib.

Yenə də bunun səbəbinin onlara pis məsləhətlərin, xüsusilə Fransadan pis məsləhətlərin verilməsinin olduğunu düşünürəm. Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Əslində, indi Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüquqi bərqərar etdik. Lakin Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki, Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz



(Əvvəli 2-ci səhifədə)

Odur ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar. Bunların müstəmləkə siyasəti əsasən dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir.

Hesab edirəm ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq. Beləliklə, mən həmkarımı bu barədə məlumatlandırdım ki, Cənubi Qafqazda real vəziyyəti daha yaxşı anlamaq mümkün olsun.

Bizim ikitərəfli əlaqələrimizə gəldikdə demək istəyirəm ki, biz iqtisadi əməkdaşlıq məsələsini geniş şəkildə əhatə etdik. İki həftədən sonra nümayəndə heyətimiz hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi üçün Bağdada səfər edəcək. Bizim qarşılıqlı ticarətin necə artırılması ilə bağlı böyük planlarımız var. Həmçinin bu gün enerji sahəsində əməkdaşlıq məsələsini də müzakirə etdik. Növbəti ay nümayəndə heyətimizin səfəri zamanı bu məsələ yenə müzakirə olunacaq.

Biz müdafiə sənayesi, turizm sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik. Artıq bizə bu gün nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə məlumat verildi ki, iki paytaxt arasında birinci birbaşa uçuş baş tutub. Növbəti həftələrdə bizim Kərkük, Ərbil və Bəsrə şəhərlərinə də birbaşa reyslərimiz olacaq. Biz hər iki istiqamətdə çox sayda turistlərin səyahət edəcəyini gözləyirik. Əlbəttə ki, biz vizaların verilməsi prosesini sadələşdirmək üçün növbəti hansı addımların atılmasını da müzakirə etdik. Əminəm ki, səfərin nəticələri çox yaxşı olacaq. Biz bir daha ölkələrimiz arasında dostluq münasibətlərinin olduğunu təsdiq etdik. Dialoqumuzun davam etdirilməsi əminəm ki, yeni yaxşı nəticələrə gətirib çıxaracaq və bizim əməkdaşlıq güclənəcək. Bir daha cənab Prezident xoş gəlmisiniz və bizimlə bir yerdə olduğunuz üçün Sizə təşəkkür edirəm.

* * *

Sonra İraq Prezidenti bəyanatla çıxış edib.

**Prezident Əbdüllətif Camal Rəşidin bəyanatı**

- Cənab Prezident, hörmətli həmkarlar, xanımlar və cənablar!

Burada olmağa çox şadam. Bu, mənim cənab Prezidentin nəzakətli dəvəti ilə Azərbaycana ikinci səfərimdir. Bizi buraya dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm.

Düşünürəm ki, səfərimiz çox səmərəli və çox faydalı oldu. Əməkdaşlığımız keçmişdəkindən daha da güclü olmaq üzrədir. Biz bir çox fəaliyyət sahələrində - infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda, İraqa investisiyalar, eləcə də turizm və təhsilin, həmçinin iki ölkə üçün çox əhəmiyyət kəsb edən sahələrin təşviqi ilə bağlı əməkdaşlıq edə bilərik.

Cənab Prezident, icazə verin, Sizə yeni İraqı qısaca təsvir edim, mən onu yeni İraq adlandırıram. Əminəm ki, Zati-aliləri bizim tariximizi, uzun müddət ərzində diktatorluq dövründə, xalq tərəfindən sevilməyən müxtəlif hökumətlər, hərbi hökumətlər, eyni zamanda, birpartiyalı hökumətlər və ya bir şəxsin hökuməti dövründə çəkdiyimiz əziyyətləri bilir. Bu, xeyli müddət davam etdi və bizdə daxili münaqişələrə, bəzən müharibələrə, İraqdakı icmalar arasında, icmalar və hökumət arasında toqquşmalara, İraqla qonşu ölkələrimiz arasında müharibəyə, hətta beynəlxalq ictimaiyyətə meydan oxumağımıza səbəb oldu. İraqın davranışı beynəlxalq ictimaiyyət və qonşularımız tərəfindən qəbul edilmirdi. Bu da İraqın işğalına gətirib çıxardı və eyni zamanda, işğaldan sonra biz terror hücumlarından əziyyət çəkdik. Sonuncu terror hücumları İŞİD-in İraq əhalisinə, İraq şəhərlərinə və İraq mərkəzlərinə hücumları oldu.

Lakin bunun keçmişdə qaldığını Sizə məlumat verməkdən şadam. İraq yaxşı, sağlam vəziyyətdədir. Bizdə sülh, təhlükəsizlik hökm sürür, eyni zamanda, xalq tərəfindən seçilmiş hökumət var. Geniş parlament fəaliyyətimiz var, İraq parlamentinin üzvlərinin ümumi sayı 330 nəfərdir. Biz hökuməti seçmişik və İraq Prezidentini seçmişik. Bu dövr ərzində, baxmayaraq ki, bu qənaətə gəlmək çox vaxt apardı, bu, İraq dövləti üçün faydalı oldu. Çünki biz bu qərarları İraqdakı müxtəlif millətlərlə, müxtəlif dinlər və müxtəlif siyasi partiyalarla dialoq, anlaşma və əməkdaşlıq sayəsində verdik. Onların hamısı bu nəticəyə nail olunmasına öz töhfəsini verdi.

Qeyd etdiyim kimi, hökumət bir il bundan əvvəl formalaşdırılıb və Prezident hökumət seçiləndən əvvəl seçilib. Bizim parlamentimiz bir ildir ki, fəaliyyət göstərərək İraqdakı məsələlərlə məşğul olur və hökumət ehtiyac olanları həyata keçirməyə çalışır.



Biz məsuliyyətimizi iki əsas hissəyə bölmüşük. Birincisi, infrastrukturumuzu inkişaf etdirmək, ikincisi, xidmətlərimizi yenidən qurmaq. Münaqişələr, müharibələr dövründə İraqdakı bütün infrastruktur zədələnmişdi və bütün xidmətlər geri qalırdı, ona görə də biz İraqın ehtiyacı olduğunu yenidən qurmağa, inkişaf etdirməyə və möhkəmləndirməyə çalışırıq.

İraqın iqtisadiyyatı yaxşıdır. Biz neft hasil edirik, bu, gündə 4-4,5 milyon barel təşkil edir. Bizim kənd təsərrüfatımız, su ehtiyatlarımız var. Düşünürəm ki, İraq iqtisadiyyatı indi yaxşı vəziyyətdədir və gələcəkdə hətta daha da yaxşı olacaq. Biz enerji, neft, kənd təsərrüfatı və digər sahələrlə bağlı çoxmillətli layihələrə start vermişik.

Hesab edirəm ki, bizim buraya səfərimiz faydalıdır və ümid edirik ki, bu səfərlər təkrarlanacaq. Çox şadam ki, Azərbaycan nümayəndə heyəti tezliklə İraqa səfər edəcək. Sizin də qeyd etdiyiniz kimi, cənab Prezident, biz yenə də əməkdaşlıq üçün və bir çox sahələrdə əməkdaşlığın başlanılması üçün zəruri olan bütün məsələləri müzakirə edəcəyik.



Hesab edirəm ki, İraqda biznes üçün və Azərbaycan üçün İraqda biznes imkanları ilə bağlı yeni bir mühit yaratmalıyıq. Cənab Prezident, Azərbaycanda sülh və sabitliyə nail olmağınız münasibətilə Sizi təbrik edirəm. Eyni zamanda, Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması məsələsində Sizə uğurlar arzulayıram. Düşünürəm ki, müharibə və münaqişələr yalnız vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Bununla heç bir problem həll edilə bilməz. Hesab edirəm ki, bütün problemlərimiz dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll olunmalıdır.

Əfsuslar olsun ki, bütün Yaxın Şərq regionu, - bu, hətta bütün dünyaya da təsir edib, - yeni münaqişədən, fələstinlilərin hüquqları ilə bağlı olan münaqişədən əziyyət çəkir. İraqın bu məsələdə mövqeyi çox aydındır. Biz bütün fələstinlilərin hüquqlarını tamamilə dəstəkləyirik, istər onlar Qəzza zolağının Qərb sahilində olsun, istər Qəzza zolağında və dünyanın başqa bir yerində olsun. Biz ümid edirik ki, fələstinlilər öz milli hüquqlarını tamamilə əldə edəcəklər və biz tezliklə fələstinlilərin öz dövləti olacağına da ümid edirik.

Bu münaqişə real olaraq həll olunmazsa, bütün regionda gərginlik qalacaq, sülhə və sabitliyə nail olunmayacaq. Biz Fələstin xalqının dərdinə şərikik və Fələstin xalqını dəstəkləyirik. İraqın bu məsələdə mövqeyi birinci gündən çox aydındır və biz beynəlxalq birliyi öz mövqeyimiz barədə məlumatlandırmışıq. Biz Qəzzada mülki əhaliyə hücum edib öldürülməsi, məktəb və xəstəxanaların, yaşayış binalarının və mülki infrastrukturun dağıdılması hallarını qınayırıq. Ümid edirəm ki, bu böhranlı vəziyyət tezliklə sona çatacaq və Fələstin xalqı öz torpaqlarında öz hüquqlarına yiyələnəcək.

Cənab Prezident, hesab edirəm ki, təfərrüatı ilə müzakirə edə biləcəyimiz bir neçə mövzu var, lakin mən bu razılaşmalara nail olmaq və ya mövcud olduğu halda açıq qalan problemləri həll etmək üçün bunu hər iki ölkədən olan müxtəlif nazirliklərin və təşkilatların öhdəsinə buraxıram.

Hər iki ölkə arasında əməkdaşlığın daha da yaxşılaşması məni sevindirir və biz Sizinlə əlaqə saxlayacaq və nümayəndə heyətinizi onlara münasib olan vaxtda və zəruri olduqda iki ölkə arasında birbaşa reyslər vasitəsilə nəqliyyat əlaqələrini qurmaqla qəbul etməyə və eyni zamanda, Sizin təcrübənizdən faydalanmağa hazırıq.

Yekunda əldə etdiyiniz nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən təkcə Bakını görmüşəm, başqa yerləri görməmişəm. Lakin Bakıda infrastruktur, binalara və şəhərdə təşkilati məsələlərə münasibətdə gördüklərim əsasında Sizi təbrik edirəm. Bu, istənilən ölkə üçün heyrətamiz bir nailiyyətdir və siz hamınız Bakıda yaşamaqdan qürur hissi duymalısınız.

Bir daha, cənab Prezident, bizi dəvət etdiyinizə görə çox sağ olun. Sizin həmkarlarınızla bir yerdə vaxt keçirmək bizim üçün çox xoş idi. Bir daha Sizə ən xoş arzularımı çatdırır və gələcəkdə uğurlar diləyirəm.

* * *

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin şərəfinə rəsmi nahar verilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri HHM bölmələrinin döyüş hazırlığını yoxlayıb





Noyabrın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti döyüş hazırlığının qəfil yoxlanılması məqsədilə Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə (HHM) bölmələrindən birində olub.

General-polkovnik Zakir Həsənov komandirlərin qərar qəbuletmə və qüvvələrin tətbiqi üzrə praktiki bacarıqlarını, eləcə də bölmələrin döyüş hazırlığını yoxlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra müdafiə naziri və nazirliyin digər rəhbər heyəti HHM bölmələrinin praktiki döyüş atışlarını izləmək üçün təlim poliqonuna gəlib.

General-polkovnik Zakir Həsənov komanda-idarəetmə məntəqəsində HHM bölmələrinin döyüş hazırlığı və döyüşə hazırolma vəziyyəti barədə məruzələri dinləyib.

Komanda-qərargah məşqının nında HHM bölmələrinin döyüş fəaliyyətlərinin planlaşdırılması və idarəedilməsi üzrə tapşırıqlar icra olunduqdan sonra praktiki atışlar yerinə yetirilib.

Şərti düşmənin aşkar olunan hava hədəfləri məhv edilərək qarşıya qoyulmuş tapşırıqlar müvəffəqiyyətlə icra edilib.

Müdafiə naziri HHM bölmələrinin döyüş hazırlığını yüksək qiymətləndirib.







## Azərbaycanın müdafiə naziri Özbəkistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanova başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Özbəkistanın Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələri qoşunlarının komandanlığına məxsus Mi-8 helikopterinin Səmərqənd vilayətindəki "Kattakurqan" poliqonunda təlim-məşq uçuşu zamanı qəzaya uğraması nəticəsində ekipaj üzvlərinin həlak olması haqqında məlumat məni dərindən kədərləndirir.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Ruhları şad, xatirələri əziz olsun.

Allah rəhmət eləsin."

## XİN-də Qarabağda Ermənistanın qeyri-qanuni hərbi fəaliyyəti və növbəti hərbi cinayət planları ilə bağlı aşkarlanmış yeni faktlara dair brifinq keçirilib






Noyabrın 20-də Xarici İşlər Nazirliyində Silahlı Qüvvələr tərəfindən həyata keçirilən antiterror tədbirlərindən sonra Qarabağda aşkar edilmiş Ermənistanın qeyri-qanuni hərbi fəaliyyəti və planlaşdırdığı növbəti hərbi cinayətlərə dair yeni faktlarla bağlı Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin birgə mətbuat brifinqi keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, brifinqdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus, hərbi attaşelər, habelə yerli və beynəlxalq media nümayəndələri iştirak ediblər.

Brifinqdə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadə və Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Anar Eyvazov çıxış ediblər.

Çıxışlar zamanı həm Ermənistanın ərazilərimizi işğal altında saxladığı 30 ilə yaxın müddət ərzində, həm də postmünaqişə dövründə beynəlxalq ictimaiyyətin diqqətinin Azərbaycan ərazilərində sülh və təhlükəsizliyə hədə törədən Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, həmçinin mina təhdidinə cəlb edildiyi xatırlanıb. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun mühəndis bölmələri tərəfindən bölgədə aparılan işlər nəticəsində ərazilərimizdə piyada əleyhinə 10 mindən çox, tank əleyhinə 3000-dən çox mina və 12 minədək partlamamış döyüş sursatının aşkarlandığı və neytrallaşdırıldığı bildirilib.

Ermənistanın beynəlxalq hüquq normalarına, habelə Avropada adi silahlı qüvvələr haqqında Müqavilənin müddəalarına zidd olaraq, beynəlxalq təşkilatları, o cümlədən aidiyyəti BMT və ATƏT strukturlarını məlumatlandırmadan bölgədə külli miqdarda hərbi texnika və sursat yerləşdirdiyi qeyd olunub. Bu pozuntuların qarşısının alınması barədə Azərbaycanın çağırışlarına baxmayaraq, beynəlxalq ictimaiyyətin məsələyə biganəliyinin bölgədə gərginliyi daha da artırdığı vurğulanıb.

Azərbaycan ərazilərində, eyni zamanda, silah-sursatın yenidən modifikasiyası və xarici ölkələrə ötürülməsi kimi qeyri-qanuni fəaliyyət həyata keçirildiyi diqqətə çatdırılıb. Ermənistanın postmünaqişə dövründə də Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin təsis edilməsinə qədər silah və texnikanı, yeni istehsal olunmuş minaları ərazilərimizə ötürməkdə davam etdiyi qeyd olunub. Bununla bölgədəki mülki obyektlərə, hətta təyyarələrin təhlükəsizliyinə, habelə aparılan genişmiqyaslı yenidənqurma fəaliyyətinə hədə törədildiyi vurğulanıb.

Bu il sentyabrın 19-20-də 24 saatdan az müddətdə antiterror tədbirlərindən sonra bölgədə mina təmizləmə fəaliyyəti, habelə kommunikasiya xətlərinin və yeni təchizat yollarının bərpası məqsədilə Müdafiə Nazirliyinin digər aidiyyəti qurumlarla apardığı fəaliyyətin ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasını bir daha göstərdiyi vurğulanıb. Aparılan işlər nəticəsində ərazilərimizdə böyük bir hissəsi mülki infrastrukturlarda yerləşdirilən hərbi maşınlar, müxtəlif çaplı silahlar və sursatların aşkarlandığı bildirilib. Xüsusilə "Kornet" və "Faqot" tank əleyhinə idarə olunan raket sistemlərinin, 2021-ci il istehsalı olan TOS-1A tipli reaktiv yaylım atəşi sistemlərinin raketlərinin aşkarlandığı qeyd olunub. Bununla yanaşı, son 30 il ərzində Ermənistanın Xankəndidə hərbi texnika və dronların modifikasiyası ilə məşğul olan hərbi istehsalat mərkəzində apardığı fəaliyyət barədə məlumat verilib.

Brifinq zamanı, həmçinin bölgədəki hərbiləşmənin miqyasını göstərən görüntülər təqdim olunub. Ermənistanın ərazilərimizdə mülki əhaliyə və hərbçilərə kustar üsulla hazırlanmış dronlardan keçirilən təlimlərinin və Azərbaycanın mülki obyektlərinin hədəf alındığı barədə kadrların əks olunduğu antiterror tədbirlərindən sonra aşkar edilmiş videolar nümayiş etdirilib.

Brifinqə qatılan şəxslər antiterror tədbirlərindən sonra ərazidən müsadirə edilmiş modifikasiya olunmuş silahlar, dronlar, 2021-ci il istehsalı olan sursatlar və minaların nümunələri ilə tanış olublar.

# Salam, Zəfər şəhəri!



*Dan yeri söküləndən bəri ağacların budaqlarından sürüşən meh də, titrəşən yarpaqlar da payızın gümüldənən kövrəkliyinin carçısına dönüb. Kölgədən çıxmağa can atan Günəşə görə, boyun bükən xəzana görə, yanaqlarına sarı xallar düşən yarpaqların budaqdan üzüldüyünə görə, gözləri yollardan yığılmayanların gerçək ümidi güman dolaylarında dolaşdığına görə, ... payız kövrəklikdi, kövrəlmədi, kövrəkləşmədi. Bu ilin payızında kövrəklik duyulmur, könül xoşluğu duyulur; bu ilin payızı şahanəliklə gəldi, ruhumuzun harayı kimi gəldi, bir əsrin siyasi qərəzliyinin ödənci kimi gəldi - bədxahlığın öcü kimi gəldi...*

2020-ci ilin 8 Noyabrını da, 2023-cü ilin 20 Sentyabrını da, bu ilin 15 Oktyabrını da Tanrı uğurlamışdı. Bu ilki payızın bu günü də tarixin yaddaşında belə qalacaq!..

Tarix deyir ki, XVIII əsrin sonlarında Qarabağ xanının guşənişinliyi üçün Şuşanın 10 kilometrliyində seçilən yer bəyənilib, daş üstə daş qoyulub. Xanın təzə kəndi divar-divar hörülüb, bina-bina böyüyüb, şenlik olub. İlk vaxtlar xanın kəndində - xan kəndində ancaq xanın ailəsi, əyan-əşrəfi yaşayıb, kiçik kənd böyüyüb Xankəndi olandan sonra orada rəiyyət də yaşayıb.

İllər sonra Xankəndinin də taleyi dolaşığa düşüb: Moskva 1923-cü ilin iyulunda Azərbaycanda Dağlıq Qarabağ Muxtar Vilayəti yaratdı, ermənilərin istəyinə görə Mərkəzi böyüyüb şəhərləşmiş Xankəndi oldu. Adı Azərbaycanın idi, özü - Ermənistanın. 2023-cü ilin payızında Azərbaycan Ordusu Xankəndini taleyinə qondarılan siyasət yükündən xilas elədi. İndi Xankəndi Azərbaycanın gerçək şəhəridi. Azərbaycanın gerçək şəhərində Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra Hərbi Parad keçirilir. Bu gözəl payızda bu Parad 2020-ci ildə Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər Paradının davamıdı, tarixi gerçəkliyin Paradıdı, qüdrətin Paradıdı...

Xankəndidə hava elə gözəldi ki. Bu gözəl havada şəhər elə gözəl görünür ki! Görənlər bu gözəllikdən ayrı düşdüyümüz illərə heyfsilənir...

Bu ilin payızında bu günün gözəlliyini təbiət də uğurlayıb - ağacların xırda budaqları ahəstəcə titrəyir, yarpaqlar titrəşir, göy üzündə bircə əlçim də bulud görünmür. Neçə aylar əvvəl "Dağılıbdı Şuşanın dağlarının dumanı!" - demişdim, baxışlarım kimi, könlüm də Şuşanın dağlarına sarılmışdı. İndi - bu gün Xankəndinin də göylərinin dumanı seyrəlib. Bu gözəl şəhərin bu gün bir az da gözəlləşdiyini sezmək çətin deyil. Bu gözəlliyi bu günün Yerə-Göyə sığışmayan ovqatının durulaşdırdığına, saflaşdırdığına əminliklə yüz illərin o üzünü xatırlayıram. Xankəndi yüz il əvvəl bizimiydi, yüz il ötdü, tarixin gerçəkliyə biəti kimi yenə bizim oldu. Ruhən bu şəhərlə nəfəsnəfəsəyəm: Ev-ev, yol-yol böyüyüb kənd olmuşdun Xanın kəndi. Ox olub qəlbipaxırların gözlərinə batırdın. Yollarında yadların atları kişnəyirdi. İmperiyanın siyasəti səni ruhundan ayrı salmışdı, bizim ola-ola 1923-cü ildən sonra bizim olmadın - əli-əldən, közü-közdən, sözü-sözdən ayrı salmağa niyyətli olanlar səni erməniliyə siyasi sədəqə vermək istəmişdi, səni son illərdə erməniliyin baş kəndi eləmişdi. Azərbaycan Ordusunun qüdrətiylə ruh cana qayıdan təki öz ilkininə, əzəlinə qayıtdın - bizimsən! Bu gün sənin baş meydanında Hərbi Parad keçirilir. Aparıcının - Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin səsinin qüruru tarixi Zəfərin işığından barınıb. Bu səslə dövlətə, dövlətçiliyə sevgi danışır, sədaqət danışır. 2020-ci il dekabrın 10-da Azadlıq Meydanında keçirilən Zəfər Paradında yaşadığımız duyğuların eynini yaşayırıq, bir boy da dikəlib yaşayırıq. Bu, ordumuzun qüdrətidi...

Bu ədalətli müharibənin işğalı necə sonlandırdığını qürurla xatırlayırıq. Bu xatırlatma Paradı ürəyinin gözü ilə izləyənlərə döyüşlərdən, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışır sanki. Xatırlatmalar deyir ki, döyüşlərdə qazanılan hər qələbə sonrakı döyüşün başlanğıcı olurdu, Azərbaycan Ordusu döyüş-döyüş son döyüşə yaxınlaşırdı. Müharibənin bir döyüşünü xatırlayıram:

Vasif sol qolundan yaralandığını kimsəyə hiss etdirmədən sarıyıb yenidən döyüşə qoşulmuşdu. Düşmən inadla müqavimət göstərməyə çalışırdı. Qəflətən sağında atışan əsgərin - Rəhimin yaralandığını hiss etdi, sürünə-sürünə, atışa-atışa ona yaxınlaşdı. Rəhimin sinəsindən axan qanı gördü. Onun yarasını sarımağa, qoltuğunun altından yapışıb döyüşün içindən çıxartmağa tələsdi. On beş-iyirmi addım yaxınlaşmışdı. Sağ qoltuğunun altına köz basdılar elə bil. Diz çöksə də dikəldi. Düz-əməlli dikəlməmiş səntirlədi. Dizin-dizin Rəhimə yaxınlaşdı. "Çat-dım, qar-daş, səni döyüş-dən çıxar-da-cam. İndi-cə...", - səsi qırıldı, əli Rəhimə çatandan azca sonra ikisi də son nəfəsini çəkibmiş - döyüş səngiyəndə görmüşdülər ki, Vasifin sağ qolu Rəhimin boynuna sarılıb, Rəhimin sol qolu - Vasifin. İkisi də şəhid olmuşdu...

Xankəndidə Hərbi Parad başlayana kimi Bakıda, Gəncədə, Sumqayıtda, Laçında, ... Zəfərin üç illiyinə həsr olunmuş yürüşləri gözlərimə, gözlərimdən könlümə köçürmüşdüm:

Dünyamın nizamıdı
Azərbaycan əsgərinin
ruhuma tən yürüşü,
Könüllər yürüşdədi,
Yürüş - Vətən yürüşü!..

Hamı kimi, mən də Paradı bu ovqatla izləyirəm...

Qoşunların düzülüşü könül xoşluğudu...

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışında Vətən müharibəsinin döyüşlərindən, Azərbaycan əsgərinin cəsarətindən, qəhrəmanlıqlarından, fədakarlıqlarından danışır, 2018-ci ilin sentyabrında Bakının Azadlıq Meydanında keçirilən paradda işğalda olan ərazilərimizdə də bayraqlarımızın dalğalandırılacağını bildirdiyini xatırladır, sonralar dünyanın heyrətinə dönən Şuşa əməliyyatından danışır, "Tarixi Zəfər xalqın əyilməz ruhunun Zəferidir, bu Zəfər böyük tarixi hadisədir!" - deyir. Zəfərə görə, ərazi bütövlüyümüzün tam bərpa olunmasına görə, bugünkü Parada görə paradda iştirak edənləri, ümumən Azərbaycan ictimaiyyətini təbrik edir...

Dövlət Bayrağımız da, Şuşa işğaldan azad ediləndə qələbə rəmzi olmuş bayrağmız da Paradın iştirakçısıdı...

Şəxsi heyət mətin yerişlə keçirlər. Bu anlardan nə göz doyur, nə könül əl çəkir; nə yaxşı tədbirin rejissurasına görə yaxın məsafədən də çəkilişlər aparılır. Baxışlarımız bəzən əsgərlərin baxışlarının səyyarəsinə dönür. Bu baxışları tarixi Zəfərin soraqçısı bilirik. Onların qəhrəmanlığı tarixi qəhrəmanlıqdı. Mənə elə gəlir ki, Azərbaycan əsgərinə - Azərbaycana sayğısı olanlar bu mətin yerişi, bu inamlı baxışı ömrünün bir gününə düşən işıq kimi, ömürlük nur kimi könlünə köçürür! Bu Paradı son illərin ən gözəl səhərinin - 2020-ci ilin 9 Noyabr səhərinin uğurlandığı qürurla izləyirik, bir günü gələcək tarixlər üçün uğurladığı bir nurla izləyirik!..

Qüdrət yerişiylə, sədaqət yerişiylə keçən Xüsusi təyinatlılar üç il əvvəl döyüşlərə də belə qətiyyətlə getmişdilər. Bu qətiyyət ruhun döyüş əzmi idi. Digər qoşun növləri kimi onlar da qətiyyətlə, qəhrəmanlıqla döyüşmüşdülər, Şuşa əməliyyatını Qələbə ilə - müharibənin Zəferi ilə tamamlamışdılar. Rus jurnalisti yazırdı: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olmayıb! Dağ yuxarı, şəhid olmuş yoldaşı çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar...". Bu məqalə təkcə heyrəti ifadə etmir, həm də ehtiramın (bəlkə də sevginin!) ifadəsidi. Paradda Azərbaycan Respublikasının Prezidenti qürurla deyir ki, döyüşənlərimiz, igidlərimiz "...çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər..."...

Zəfər Paradı Bakıda, Azadlıq Meydanında keçirilmişdi. Dünya ictimaiyyəti bu Paradı da görmüşdü, azərbaycançılığı da. Xankəndinin baş meydanında keçirilən bu Parad Zəfər Paradının məntiqi davamıdı, bitməyəcək - ruhən ürəklərimizdə davam edəcək. Dünya ictimaiyyəti bunu da duyacaq...

Orkestrin ifası Paradda iştirak edənlərin ahəngdar yerişiylə elə gözəl uzlaşır ki! - ayaq səslərini də ritm bilirsən. Sənə elə gəlir ki, bu anlarda şəhidlərin ruhunun səsini eşidəcəksən: Müqəddəs döyüşlər Zəfər gətirdi, hamımızın ruhu Paradda iştirak edənlərin sırasındadı...

Qoşquların üzərində son əməliyyatlar zamanı düşməndən qənimət kimi götürülmüş müxtəlif təyinatlı döyüş texnikaları keçir. Düşmən onların işləklərini döyüşə cəlb etməyə macal tapmayıb, vəziyyət gərginləşəndə döyüş maşınlarını, artilleriya qurğularını ataraq qaçıb. Düşmənin döyüşlərdə vurulan texnikaları paradda görk kimi göstərilir. Bunlar erməniliyin sonunun rəmzidi; parad azərbaycançılığın qüdrətini tarixləşdirir. Paradı izləyənlər bir az əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi bir kəlamı xatırlayır: "Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün". Bu kəlmələr birliyin, ayrılmazlığın, həm də Paradın qüruru kimi səslənir...

Görəsən, bu texnikaları vuran igidlərimiz bu anlarda nələr düşünürlər? Mənə elə gəlir ki, hamısı "Döyüşənlərimiz şücaətlə döyüşdülər, qəhrəmanlıqla döyüşdülər, qələbə üçün döyüşdülər", - deyir. İnamım payızın sərinliyini isindirir. Onlar da müharibənin başlanğıcında düşmənin möhkəmləndirilmiş sədlərini darmadağın edənlərin sırasında olublar. Düşmənin quraşdırdığı sədlərdən keçən yol ordumuzu Zəfərə çatdırdı. Paradın mahiyyətində üç il əvvəlin tarixi də var; Parad həm də Vətən müharibəsinin müqəddəs döyüşlərini tarixləşdirmə missiyasıdı...

Füzuli ətrafında döyüşlərin birində artilleriyaçılarımızın atdığı mərmi düşmən tankının üstünə düşüb. Görəsən, o mərmini atan hərbi qulluqçu da Paradın iştirakçıları sırasındadırmı? Tərxis edilibmi? Görəsən, üç il əvvəlin bu gününün sevinci yaddaşında necə qalıb? Görəsən, Vətən müharibəsində "Topçu Vüsal" kimi tanınan əsgər Vüsal Şahkərimov bu anlarda hansı duyğuları yaşayır? Paradı üç il əvvəl atdığı sonuncu mərminin duyğularıyla izləyir yəqin; qaliblər kimi tərxis olunmuş əsgər neçə aylarla mehrini saldığı, hər gün əlinin təmasını, doğmalığını əsirgəmədiyi topu da xatırlayır, gümanındayam. Könlündən keçir ki, onu əvəzləmiş əsgərə "Topa yaxşı qulluq elə..." - desin...

Döyüşlərdə "Xalqımızın ruhudu bu gün bayraqdarımız!" - deyirdik. Səsimiz səslərə qarışırdı, səsimizə səslər qarışırdı. Döyüşlərdən çıxmış hərbi hissələrin döyüş bayraqları əsgəri qürurla keçdikcə könlümüz tellənir. Yəqin ki, indi hamı "Bayrağım - varlığım, bəxtiyarlığım!" - deyir...

Döyüşlərdə "Gücümüz - əsgərimiz, gücümüzü gücləndirən gücümüz - Bayrağımız, türkçülüyün qüdrəti, öcümüz - "Bayraktar"ımız!" - deyirdik. "Bayraktar"ları da xatırlayırıq. Bu da bugünkü Paradın qüdrətidi. Vətən müharibəsində döyüşlərdə göy üzündə görünəndə düşmən "ödünü udurdu", döyüşçülərimizin döyüş əzmi kükrəyirdi, qələbə ruhu silaha dönürdü. "Bayraktar"lar döyüşlərin şahənşahıydı. Bu payız səhərində o payız səhərinin ovqatını yaşayırıq. Gün - eyni (8 noyabr), ovqat - eyni (bayraqlaşan qüdrət), il - ayrı (2020-ci il, 2023-cü il). Bu eyniliklərin qüruru Parad iştirakçılarının mətin yerişində coşqu ilə yaşanılır. O payız səhərində Paradı 6-7 yaşlı uşaq atasının çiyinlərindən izləyirdi. İndi 9-10 yaşındadı. Bugünkü Paradı o da görür. Qürurlanır. Özünü xəyalən tarixi Zəfərin 10 illiyinə həsr olunacaq tədbirdə iştirak edənlərin sırasında görür, şübhəsiz. Minlərlə həmyaşıdı kimi...

Ruhla gücün vəhdətinin Paradı başa çatır. "Qələbə marşı" iştirakçıların da, Paradı izləyənlərin də ruhunun dilmancına dönür...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı qələbənin rəhnidir.

**Suallar:**

**1. Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu.**

**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

### Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu

Əsgərin döyüşə psixoloji hazırlığı, hərbi kollektivlərin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti hər bir ordunun döyüş gücünün vacib tərkib hissələrindən biri sayılır. XXI əsrin ən parlaq savaş nümunəsi 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin qüdrətini və ordusunun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qazanılmış Zəfərin əsasını qoyan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu barədə belə demişdir: "44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir".

"Mənəvi-psixoloji vəziyyət" məfhumu qoşunların fəaliyyətinə Azərbaycan Ordusunda yeni quruculuq işlərinin başlanması ilə daxil edilmişdir. Bu onunla şərtlənmişdir ki, hərbi-siyasi vəziyyətin yeni həqiqətləri, qarşıda duran hərbi vəzifələrin xüsusiyyətləri insan amilinin bütün tərkib hissələrinin maksimum fəallaşdırılmasını tələb edir.

Həm 44 günlük Vətən müharibəsində, həm də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlar, şücaət və igidlik nümunələri onun psixoloji hazırlığının göstəricisidir. Hələ 14 yaşında ikən hakimiyyətə gəlmiş Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmək uğrunda savaşa qalxarkən belə demişdir: "Biz müharibədə süstlük etsək, onda həm Vətənimizi, həm də həyatımızı itirəcəyik". Atabəy Eldəgiz, Uzun Həsən, Mustafa Kamal Atatürk müharibələr tarixində ona görə iz buraxa bilmişlər və hərb sənəti onların qazandığı şöhrəti ona görə qoruyub saxlayır ki, onlar gözəgörünməyən, lakin "dəhşətli" bir gücdən - döyüşçü psixikasından yararlanmağı bacarmışlar.

Əsgərlərin döyüşlərə psixoloji hazırlığının yüksək dərəcədə olması özünü hərbi qulluqçuların və ilk növbədə, Azərbaycan əsgərinin döyüş şəraitindəki davranışında göstərmişdir. Əksinə olduğu hallarda, yəni, psixoloji hazırlığı zəif olan hərbçilərin, o cümlədən Azərbaycan torpaqlarını 30 ilə yaxın bir müddətdə qəsb etmiş erməni hərbi qulluqçularının rəftarında açıq-aydın görmək mümkün idi. Onların əksəriyyəti hay-küyə və çaxnaşmaya düşür, əmrləri düzgün yerinə yetirə bilmir və yaxud yerinə yetirmək istəmir, onlarda məqsəd aydınlığı, qətiyyət, döyüş fəallığı, təşəbbüskarlıq və özünənəzarət zəif olur ki, bunları da müharibə zamanı şübhələr, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlı olur. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa, o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks-psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

Əsgərin psixoloji hazırlığı -
- döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını,
- fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı,
- döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri,
- psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən, yəni,
- hər şeydən öncə insanın əqidəsindən,
- onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən,
- verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu,
- birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını;
- ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətlərinə:
- tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.) aid edilir.

Döyüşə psixoloji hazırlığın üç dərəcəsi var: 1 - aşağı, 2 - orta və 3 - yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır. Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır. Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq cəhdi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

**Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:**
- özünəinam və özünütəlqin,
- öz təxəyyülünü idarəetmə,
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünütəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edir. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

**Özünütəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:**

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özününtəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə, demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Diqqətin idarə olunması əsgərin təxəyyülünü idarəetməsi ilə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda (işlək vəziyyətdə) saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Ulu Öndərin 100 illiyi ilə əlaqədar tədbir keçirilib





Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ulu Öndərin 100 illiyi ilə əlaqədar "N" hərbi hissəsində "Heydər Əliyev müstəqilliyimizin və milli dövlətçiliyimizin banisidir" adlı tədbir keçirilib.

Əvvəlcə Ulu Öndərin hərbi hissənin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyularaq xatirəsinə ehtiram nümayiş etdirilib.

Hərbi qulluqçular, şəhid ailələrinin üzvləri, müharibə veteranları, ictimaiyyət nümayəndələri, məktəblilər və digər qonaqların iştirakı ilə keçirilən tədbirdən öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində güclü müdafiə qüdrətinə və peşəkar döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu formalaşıb. Azərbaycan xalqının Ümummilli Liderinin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi diqqətə çatdırılıb.



Sonra Ulu Öndərin şərəfli həyat yolundan və müstəsna xidmətlərindən bəhs edən videoçarx nümayiş etdirilib.

Sonda vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib, şeirlər oxunub.

# Milli Müdafiə Universitetində Gürcüstan nümayəndə heyəti ilə görüş keçirildi





Ölkəmizdə səfərdə olan Gürcüstan Respublikasının Müdafiə İnstitusional İnkişaf Məktəbinin nümayəndələri və "Müdafiə və Təhlükəsizlik Strateji Proqramı" kursunun dinləyiciləri Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunu ziyarət etdilər.

Milli Müdafiə Universitetinin rektorunun tədris üzrə müavini vəzifələrini icra edən, dosent, polkovnik Arzu İsmayılov və Hərbi İdarəetmə İnstitutunun rektoru, milli təhlükəsizlik və hərbi-nəzəri elmlər doktoru, professor, polkovnik Bəbir Quliyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluqlarını bildirdilər.

İkitərəfli əməkdaşlıq planına əsasən keçirilən görüşdə qonaqlara Milli Müdafiə Universitetinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olundu.

Azərbaycan və Gürcüstanın hərbi təhsil üzrə ekspertləri ilə keçirilən görüşdə ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri haqqında danışıldı, ətraflı fikir mübadiləsi aparıldı, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu, xatirə şəkillər çəkdirildi.

**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# "Doğu Akdeniz-2023" beynəlxalq təliminə hazırlıq məşqləri keçirilib





Türkiyə Respublikasının Marmaris şəhərində "Doğu Akdeniz-2023" beynəlxalq təliminə hazırlıq məşqləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimə cəlb edilən heyət zəbt olunmuş gəmiyə baxışın keçirilməsi, eləcə də şərti düşmən arxasına helikopterdən enmə üzrə tapşırıqları praktiki yerinə yetiriblər.

Qeyd edək ki, qardaş ölkədə keçirilən "Doğu Akdeniz-2023" beynəlxalq təlimində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) Dəniz Xüsusi Təyinatlılar dəstəsinin bir qrup şəxsi heyəti iştirak edir.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Prezidenti: İlin əvvəlindən indiyədək 2 min terrorçu zərərsizləşdirilib



İlin əvvəlindən indiyədək bəziləri lider səviyyəsində olmaqla təxminən 2 min terrorçunu zərərsizləşdirdik. Gecə qəfil gələ biləcəyimiz xəbərdarlığımız dünən olduğu kimi, bu gün də qüvvədədir.

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra açıqlamasında deyib.

"Terrorçular tökdükləri hər damla qana görə cavab verəcəklər. Son terrorçu məhv olana qədər sərhədlərimiz daxilində və xaricində bu mübarizəni davam etdirəcəyik. Onlar ölkəmiz üçün təhlükə mənbəyidir", - deyə Türkiyə Prezidenti vurğulayıb.

## ABŞ-ın İraqdakı hərbi bazası raket hücumuna məruz qalıb



ABŞ-ın İraqın qərbindəki Ənbər əyalətində yerləşən Ayn-əl-Əsəd hərbi bazası raket hücumuna məruz qalıb.

Hücum nəticəsində insan tələfat və ya maddi itki olub-olmadığı barədə məlumat verilmir.

Regionda fəaliyyət göstərən "İraqın İslam müqaviməti" hərəkatı isə öz növbəsində hərbi bazaya PUA ilə hücum etdiklərini bildirib.

Pentaqonun yüksək vəzifəli nümayəndəsinin sözlərinə görə, oktyabrın 17-dən bəri ABŞ və beynəlxalq koalisiyanın İraq və Suriyadakı bazalarına PUA və raketlərdən istifadə olunmaqla, təxminən 50 dəfə hücum edilib.

## Finlandiya ilk dəfə Baltik dənizində NATO təlimlərinə rəhbərlik edir



NATO-ya üzv olduqdan sonra ən böyük dəniz təlimləri Finlandiyada başlayıb.

Finlandiya, İsveç, Estoniya, Fransa, Böyük Britaniya, ABŞ və NATO gəmiləri Finlandiya Donanmasının "Dondurucu Küləklər 23" (FRWI 23) təlimində iştirak edir.

Təlimin məqsədləri arasında Fin donanmasının taktiki imkanlarının inkişafı da var.

Dondurucu flotiliyanın komandiri Anders Backstrom deyib: Təlimlər birgə dəniz əməliyyatlarını tez və effektiv şəkildə həyata keçirmək bacarığını sınamağa imkan verir.

O vurğulayıb ki, bu, ordunun təhlükəsizlik vəziyyətində yaranan dəyişikliklərə tez reaksiya vermək qabiliyyətini gücləndirir.

## Niderland Ukraynaya 2 milyard avro əlavə hərbi yardım göstərəcək



Niderland Ukraynaya 2 milyard avro məbləğində yeni hərbi yardım paketi göndərəcək.

Bu barədə Niderlandın Müdafiə Nazirliyinin açıqlamasında bildirilib.

"Niderland Ukraynaya ardıcıl olaraq dəstək göstərilməsini davam etdirir. 2024-cü ildə Nazirlər Kabineti bunun üçün 2 milyard avrodan çox vəsait ayırıb. Bu məbləğ əsasən hərbi dəstək məqsədilə nəzərdə tutulub", - deyə açıqlamada qeyd olunub.

Ayrılan vəsait silah-sursatın tədarükünə, texnika və silahlara texniki qulluq göstərilməsinə, kibertəhlükəsizliyə, həmçinin ölkənin bərpasına və yenidən qurulmasına yönəldiləcək. Bundan əlavə, Niderland 2024-cü ildə Ukrayna Silahlı Qüvvələrinin hərbçiləri üçün təlimləri davam etdirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Ailənin bir şəhidi, iki döyüşçüsü



Birinci Qarabağ müharibəsi yenicə alovlanmağa başlayanda çoxları kimi Azad Zamanov da Vətənin müdafiəsinə qalxan oğullardan biri oldu. Qısamüddətli təlimdən sonra cəbhəyə yollandı. Onun döyüş yolu Cəbrayıldan, Qubadlıdan, Laçından keçdi. Lakin yeni yaranmaqda olan ordumuzda idarəçiliyin lazımi səviyyədə olmaması, şəxsi heyətin vahid komandanlıq tərəfindən deyil, pərakəndə şəkildə idarə olunması sonradan böyük məğlubiyyətlərə gətirib çıxardı.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkə daxilindəki siyasi böhran aradan qaldırıldı. Əsgər Azad Zamanov o zaman cəbhədə həyata keçirilən hərbi əməliyyatlarda iştirak edirdi. Qarabağ müharibəsi yenicə başlayanda onların ən böyük arzusu tezliklə erməni silahlı dəstələrini məhv edib ölkəmizə sülh, əmin-amanlıq gətirmək idi.

Bu günlərdə Şəmkir rayonunun Könüllülər kəndində olanda inzibati ərazi üzrə icra nümayəndəsi Məhəmməd Salahovla görüşdük. Birinci Qarabağ müharibəsi əlili Məhəmməd müəllim Könüllülər kəndində xeyli sayda müharibə iştirakçısının və ondan artıq şəhidin olduğunu bildirdi. Sonuncu şəhid kəndə sentyabrın 19-da başlayan və cəmi bir gün davam edən əməliyyat tədbirləri zamanı gətirilib. İcra nümayəndəsi Vətən yolunda qəhrəmanlıqla canını fəda etmiş həmin şəhidin Əhməd Azad oğlu Zamanlının olduğunu bildirdi.

Məhəmməd Salahov şəhid Əhməd Zamanlının yaşadığı küçənin girişində onun xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılan bulaqda tikinti-tamamlama işlərinin aparıldığını, yaxın günlərdə "Şəhid bulağı"nın açılışının olacağını bildirdi. Şəhidin atası Azad Zamanovla da elə burada görüşdük. Oğlu haqqında bəzi məlumatlar öyrənmək istədiyimizi deyəndə bizi evinə dəvət etdi. Şəhid atasının necə mehriban, qayğıkeş, mərd bir insan olduğunu da onunla ünsiyyət zamanı gördük.

Darvazadan həyətə ayaq qoyduq. Təmiri davam edən mənzilə daxil olduq. Otaqlardan birinə şəhid Əhmədin şəkilləri, şəxsi əşyaları qoyulub. Atası Azad Zamanov deyir ki, Əhməd Ağdam istiqamətində yerləşən hərbi hissədə xidmət edirdi. Yanvar ayında da tərxis olunacaqdı. Oğlum bizimlə tez-tez əlaqə saxlayırdı. Xidmətlə bağlı zərrə qədər də olsun narazılıq etmirdi. İyul ayında on günlük məzuniyyətə də gəlmişdi. Çox şən və xidmətdən razı idi. Sentyabrın 19-da saat 12 radələrində Əhməddən zəng gəldi. Hər şeyin yaxşı olduğunu bildirdi. Onun bir neçə dəfə dediyi - ata, mənimlə fəxr edərsiz! - sözlərini anlamaqda çətinlik çəkdim. Oğlumun nədən belə dediyini, nəyə eyham vurduğunu bir neçə saatdan sonra bildim.

Oğlunun xidmət etdiyi hərbi hissə əməliyyat tədbirlərində Ağdam-Ağdərə istiqamətində fəaliyyət göstərib. Əhməd də döyüşənlərin sırasında olub. O, güllələri düşmən üzərinə dolu kimi yağdırıb. Ordumuzun qətiyyətinə, əsgərlərimizin cəsarətinə tab gətirməyən düşmən geri çəkilməyə məcbur olub. Lakin Əhməd düşmən snayperindən yayına bilməyib...

Azad kişi deyir ki, cəmi bir neçə saat davam edən döyüşdə Əhməd cəsurluğu ilə silahdaşları və komandirləri arasında rəğbət qazanmışdı. Onun ölümünü şəxsi heyət kədərlə qarşılayıb. İndi Əhməddən qalan yalnız şəkillərdir.

...Ceyhunə ana masanın üzərindəki Əhmədin şəkillərinə, ondan xatirə qalan əşyalara baxıb kimsəyə hiss etdirmədən axan göz yaşlarını silir. Ana üçün övlad itkisi qədər ağır dərd yoxdur. Qəhər onu boğur. Dərindən nəfəs alıb astadan: - Əhməd həmin gün özünə yaxın olan dayısına da zəng edib halallaşıb. "Mənimlə fəxr edərsiz", - deyib. Balam ölümü əvvəlcədən duyubmuş, - dedi.

Sonra masanın üzərindəki ilk dəfə orta məktəbə bayrağa sarıldığı, hərbi xidmətə gedərkən bayrağı öpdüyü yerdə çəkdirdiyi şəkilləri göstərir. "Onun davranışı, çəkdiyi fotolar necə vətənpərvər bir oğul olduğundan xəbər verir. Əhmədin daxili dünyasından özündən başqa kimsənin xəbəri olmayıb. Canından, qanından artıq sevdiyi Vətənə sevgisini son anda şəhidlik zirvəsinə ucalmasıyla sübut etdi".

Əhməd Zamanlı Könüllülər kənd tam orta məktəbini doqquzuncu sinfə qədər oxuyub. Sonra təhsilini Gəncə peşə təhsil mərkəzində davam etdirib. Xidmətə getməmişdən əvvəl imtahan da veribmiş. Lakin nəticələr çıxmamış hərbi xidmətə yollanıb. Mingəçevir Turizm Kollecinə qəbul olması barədə sonra xəbər tutub. Təhsilini əsgərlikdən qayıdandan sonra davam etdirəcəyini deyib...

Ailənin böyük oğlu Murad Zamanlı da 44 günlük Vətən müharibəsinin iştirakçısıdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.

Könüllülər kənd icra nümayəndəsi və şəhid atası Azad Zamanovla birlikdə Əhməd Zamanlının məzarını ziyarət etdik.

Sonda Vətənə bir şəhid, iki döyüşçü verən ailədən həm ürək ağrısıyla, həm də qürurla ayrıldıq. Ürəyimizi ağrıdan Əhmədin vaxtsız ölümü, vətənpərvərliyi ilə şəhadətə qovuşması və qürur verən isə atanın da, böyük qardaşının da Vətən torpağı üçün döyüşmələridir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan boksçusu ikiqat Avropa çempionu olub



Monteneqronun Budva şəhərində 22 yaşadək boksçular arasında Avropa çempionatında final döyüşləri keçirilir. Həlledici mərhələdə Azərbaycan millisinin 2 boksçusu rinqə çıxıb.

Finalda ermənistanlı Rudolf Qarboyanla üz-üzə gələn yığmamızın lideri Nicat Hüseynov (51 kq) rəqibinə heç bir şans verməyib. Hər 3 raundu xeyrinə bitirən Hüseynov yekunda 5:0 (29:28, 30:27, 29:28, 30:27, 30:27) hesabı ilə inamlı qələbə qazanıb. O, bununla titulunu qoruyaraq ardıcıl ikinci dəfə Avropa çempionu adına layiq görülüb və Budvada Azərbaycanın Dövlət Himni səsləndirilib.

Çempionatda 57 kiloqram çəkidə mübarizə aparan Əzrək Bəbirov isə gümüş medalla kifayətlənib.

Bir il əvvəl Xorvatiyada yığmamız 1 qızıl, 1 gümüş və 2 bürünc medala sahib olmuşdu.

## Azərbaycan gimnastları dünya yaş qrupları yarışında gümüş medal qazanıblar



Azərbaycan gimnastları Böyük Britaniyanın Birmingem şəhərində batut gimnastikası və tamblinq üzrə keçirilən dünya yaş qrupları yarışında uğurla çıxış ediblər.

Yığma komandanın üzvlərindən İbrahim Mustafazadə, Ammar Baxşaliyev, Samirə Hüseynova və Ayan Şabanova sinxron proqramda gümüş medal qazanıblar.

Qeyd edək ki, bu nəticə qadınlar arasında sinxron proqramda Azərbaycan gimnastika tarixində dünya yaş qrupları yarışında qazanılan ilk nailiyyətdir.

## Azərbaycan millisinin voleybolçuları Vyetnamda gümüş və bürünc medal qazanıblar




Azərbaycan millisinin voleybolçuları Polina Rəhimova və Odina Əliyeva Vyetnam çempionatında fəxri kürsüdə yer alıblar.

P.Rəhimovanın çıxış etdiyi "Duk Qianq Tia Sanq" komandası mövsümü ikinci pillədə başa vuraraq gümüş medal qazanıb. Yığma üzvü həm də Vyetnam liqasının ən yaxşı hücumçusu seçilib.

O. Əliyevanın şərəfini qoruduğu "Binh Dyen Lonq An" komandası isə ölkə çempionatında bürünc medalın sahibi olub.

Qeyd edək ki, hər iki voleybolçu bu ilin yayından Vyetnam liqasında çıxış edir.

## Kriştianu Ronaldu 2000-ci illərin ən yaxşı yarımmüdafiəçisi seçilib



"FourFourTwo" nəşri 2000-ci illərin ən yaxşı yarımmüdafiəçilərini açıqlayıb.

Siyahıya Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun futbolçusu Kriştianu Ronaldu başçılıq edir.

Fransalı Zinəddin Zidan ikinci, braziliyalı Kaka isə üçüncü yerdə qərarlaşıb.

2000-ci illərin ən yaxşı yarımmüdafiəçiləri:

1. Kriştianu Ronaldu (Portuqaliya)
2. Zinəddin Zidan (Fransa)
3. Kaka (Braziliya)
4. Xavi Ernandes (İspaniya)
5. Andrea Pirlo (İtaliya)
6. Andres İnyesta (İspaniya)
7. Luiş Fiqu (Portuqaliya)
8. Pavel Nedved (Çexiya)
9. Deku (Portuqaliya)
10. Frenk Lempard (İngiltərə)

**AZƏRTAC-ın materialları əsasında**

# Voleybol üzrə ordu birinciliyi başa çatıb



2023-cü ilin hazırlıq planına əsasən, Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən voleybol üzrə ordu birinciliyi başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bağlanış mərasimində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın müstəqilliyi, suverenliyi ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər qalib komandaları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hərbi qulluqçuların fiziki hazırlığının yüksək səviyyədə saxlanılmasında bu cür idman yarışlarının əhəmiyyətini xüsusi vurğulayıblar.

Bildirilib ki, müxtəlif qoşun növlərini və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən birincilikdə ümumilikdə 7 komanda mübarizə aparıb.

Yekun nəticələrə əsasən, Heydər Əliyev adına Hərbi İnstitutun komandası qalib gələrək birinciliyin kubokunu qazanıb. Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Sonda qalib komandalara diplom, kubok və medallar təqdim olunub, xatirə şəkli çəkdirilib.





Baş redaktorun müavini mayor Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
kapitan Orxan HÜSEYNLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 727
Nüsxə 4752